## "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərə gətirilən mallara texniki, tibbi, əczaçılıq, sanitar, baytar və fitosanitar normaların, qaydaların və tələblərin tətbiq edilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. 2001-ci il sentyabrın 28-də Moskva şəhərində Azərbaycan Respublikası tərəfindən xüsusi rəy ilə imzalanmış "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərə gətirilən mallara texniki, tibbi, əczaçılıq, sanitar, baytar və fitosanitar normaların, qaydaların və tələblərin tətbiq edilməsi haqqında" Saziş **təsdiq edilsin.**

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti Heydər ƏLİYEV,**

Bakı şəhəri, 12 fevral 2002-ci il
№ 257-IIQ

## Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərə gətirilən mallara texniki, tibbi, əczaçılıq, sanitar, baytar və fitosanitar normaların, qaydaların və tələblərin tətbiq edilməsi haqqında

## SAZİŞ

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan, bundan sonra Tərəflər adlandırılan dövlətlərin hökumətləri,

Azad ticarət zonasının yaradılması haqqında 1994-cü il 15 aprel tarixli Sazişin, Sazişə əlavələr və dəyişikliklər edilməsi barədə 1999-cu il 2 aprel tarixli Protokolun müddəalarını və Azad ticarət zonasının formalaşdırılmasına dair MDB Dövlət Başçıları Şurasının 1999-cu il 2 aprel tarixli qərarının yerinə yetirilməsi üzrə işin əsas istiqamətləri barədə MDB Hökumət Başçıları Şurasının 1999-cu il 4 iyun tarixli qərarını, Azad ticarət zonasında texniki maneələrə dair 2000-ci il 20 iyun tarixli Sazişi, həmçinin Müstəqil Dövlətlər Birliyi çərçivəsində bağlanmış digər müvafiq beynəlxalq müqavilələri əsas götürərək,

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ümumi aqrar bazarı haqqında 1998-ci il 6 mart tarixli Sazişin inkişafı olaraq,

beynəlxalq hüququn hamılıqla tanınmış normalarından və Tərəflərin milli qanunvericiliklərindən çıxış edərək,

qarşılıqlı faydalı ticarət-iqtisadi münasibətlərin daha da genişləndirilməsinə səy göstərərək,

MDB iştirakçısı olan dövlətlərdə insanların həyat və sağlamlığının qorunmasına, fitosanitar vəziyyətin yaxşılaşdırılmasına və ətraf mühitin mühafizəsinə kömək etmək üçün görüləcək tədbirlərin aktuallığını etiraf edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

### M a d d ə 1

Tərəflərin gömrük ərazilərinə gətirilən mallara texniki, tibbi, əczaçılıq, sanitar, baytarlıq və fitosanitar normaların, qaydaların və tələblərin (bundan sonra — tələblər) tətbiq edilməsi

malların ölkəyə gətirilməsi zamanı yol verilən pozuntuların aşkara çıxarılmasına, qarşısının alınmasına və pozuntulara yol verilməməsinə yönəldilmiş norma və qaydaların məcmusundan ibarətdir.

M a d d ə 2

Tərəflər onların gömrük ərazilərinə gətirilən mallara verilən tələblərin tətbiqinə dövlət nəzarətinin həyata keçirilməsini Tərəflərin milli qanunvericiliklərinə müvafiq olaraq müəyyənləşdirilən nazirlik və idarələrə (bundan sonra-səlahiyyətli orqanlar) həvalə edirlər.

M a d d ə 3

Tələblərin tətbiqi qaydası Tərəflərdən hər hansı birinin ərazisində istehsal olunan və digər Tərəflərin gömrük ərazilərinə aparılmaq üçün nəzərdə tutulan mallara şamil edilir.

M a d d ə 4

Tərəflərin ərazilərində qüvvədə olan tələblərə uyğun olmayan malların gətirilməsinə yol verilmir.

Tərəflər qüvvədə olan tələblərə uyğun olmayan malların gətirilməsinin qarşısını almaq üçün razılaşdırılmış fəaliyyətin təmin olunmasını səlahiyyətli orqanlara həvalə edirlər.

M a d d ə 5

Səlahiyyətli orqanlar bu Sazişin ayrılmaz hissəsi olan Məhsulun sertifikatlaşdırılmasının aparılması tərzi və qaydalarına verilən Ümumi tələbləri (1-ci əlavə), Məcburi sertifikatlaşdırılması tələb olunan malların MDB iştirakçısı olan dövlətlərin gömrük ərazilərinə gətirilməsi qaydası haqqında Əsasnaməni (2-ci əlavə) və MDB iştirakçısı olan dövlətlərin sərhədlərindən keçirilən mallara sanitar, baytar və fitosanitar nəzarətin təşkilinə verilən ümumi tələblər haqqında Əsasnaməni (3-cü əlavə) rəhbər tuturlar.

M a d d ə 6

Səlahiyyətli orqanlar malların sertifikatlaşdırılmasını həyata keçirən akkreditə edilmiş orqanların siyahılarını, məhsulun (malların) insan sağlamlığı üçün təhlükəsizlik göstəriciləri üzrə tibbi-bioloji və digər tədqiqatlarını həyata keçirməyə akkreditə edilmiş və attestasiyadan keçmiş idarə və təşkilatların siyahılarını, sertifikat nümunələrini, milli uyğunluq nişanlarını, eləcə də məcburi sertifikatlaşdırılması tələb olunan məhsulların siyahısını və dövlət sanitar, fitosanitar və baytar nəzarətindən keçirilməli olan malların siyahılarını bir-birlərinə göndərirlər.

M a d d ə 7

Tərəflərin gömrük ərazilərinə dərman vasitələrinin, tibbi təyinatlı məmulatın və tibbi texnikanın, biopreparatların, heyvanları mühafizə vasitələrinin, baytarlıq avadanlığı və alətlərinin gətirilməsi Tərəflərin milli qanunvericiliklərinə uyğun olaraq həyata keçirilir.

M a d d ə 8

Tərəflər Yox olmaq təhlükəsi altında olan yabanı flora və fauna növlərinin beynəlxalq ticarəti haqqında Konvensiyanın (SİTES) müddəalarını və SİTES konfranslarının qətnamələrini, əgər bunların qüvvəsi ticarət obyektlərinə şamil edilirsə, rəhbər tuturlar.

M a d d ə 9

Bu Saziş onu imzalamış Tərəflərin Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları yerinə yetirmələri barədə üçüncü bildiriş saxlanılmaq üçün depozitariyə verildiyi gündən qüvvəyə minir.

Zəruri prosedurları sonradan yerinə yetirmiş Tərəflər üçün bu Saziş müvafiq sənədlər saxlanılmaq üçün depozitariyə verildiyi gündən qüvvəyə minir.

M a d d ə 1 0

Tərəflərin ümumi razılığı ilə bu Sazişə dəyişiklik və əlavələr edilə bilər. Dəyişiklik və əlavələr bu Sazişin 9-cu maddəsində nəzərdə tutulmuş qaydada qüvvəyə minən ayrı-ayrı protokollarla rəsmiləşdirilir.

M a d d ə 1 1

Bu Sazişin tətbiqi və təfsiri ilə bağlı mübahisələr və ixtilaflar maraqlı Tərəflərin danışıqlar aparması yolu ilə həll edilir.

M a d d ə 1 2

Bu Saziş qüvvəyə mindiyi gündən başlayaraq beş il müddətində qüvvədə olur və əgər Tərəflər başqa qərar qəbul etməsələr, onun qüvvəsi avtomatik olaraq növbəti beş illik müddətlərə uzadılacaq.

M a d d ə 1 3

Bu Saziş onun məqsəd və prinsiplərinə tərəfdar çıxan üçüncü dövlətlərin qoşulması üçün açıqdır; qoşulma bütün Tərəflərin razılığı ilə, bu cür qoşulma haqqında sənədlərin depozitariyə verilməsi yolu ilə həyata keçirilir.

Qoşulma bu cür qoşulmaya razılıq haqqında sonuncu bildirişi depozitarinin aldığı tarixdən qüvvəyə minmiş hesab olunur.

M a d d ə 1 4

Hər bir Tərəf azı altı ay öncə depozitariyə yazılı bildiriş göndərməklə bu Sazişdən çıxa bilər.

2001-ci il sentyabrın 28-də Moskva şəhərində rus dilində bir əsl nüsxədə imzalanmışdır. Əsl nüsxə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılır; İcraiyyə Komitəsi bu Sazişin təsdiq edilmiş surətini onu imzalamış hər bir dövlətə göndərəcəkdir.

| | |
|---|---|
| **Azərbaycan Respublikasının Hökuməti adından** | **Moldova Respublikasının Hökuməti adından** |
| *(xüsusi rəylə imzalanmışdır)* | *(imza)* |

**Ermənistan Respublikasının**
**Hökuməti adından**
*(imza)*

**Belarus Respublikasının**
**Hökuməti adından**
*(imza)*

**Gürcüstan**
**Hökuməti adından**
*(imza)*

**Qazaxıstan Respublikasının**
**Hökuməti adından**
*(imza)*

**Qırğızıstan Respublikasının**
**Hökuməti adından**
*(imza)*

**Rusiya Federasiyasının**
**Hökuməti adından**
*(imzalanmayıb)*

**Tacikistan Respublikasının**
**Hökuməti adından**
*(imza)*

**Türkmənistan**
**Hökuməti adından**
*(imzalanmayıb)*

**Özbəkistan Respublikasının**
**Hökuməti adından**
*(imzalanmayıb)*

**Ukrayna**
**Hökuməti adından**
*(qeyd-şərtlə imzalanmışdır)*

**Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərə gətirilən mallara texniki, tibbi, əczaçılıq, sanitar, baytar və fitosanitar normaların, qaydaların və tələblərin tətbiq edilməsi haqqında 2001-ci il 28 sentyabr tarixli Sazişə**
**1-ci ƏLAVƏ**

## Məhsulun sertifikatlaşdırılmasının keçirilməsi tərzi və qaydalarına verilən

## ÜMUMİ TƏLƏBLƏR

Məhsulun sertifikatlaşdırılmasının keçirilməsi tərzi və qaydalarına verilən bu Ümumi tələblər (bundan sonra — Ümumi tələblər) Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərə gətirilən mallara texniki, tibbi, əczaçılıq, sanitar, baytar və fitosanitar normaların, qaydaların və tələblərin tətbiq edilməsi haqqında Sazişin iştirakçıları olan, bundan sonra Tərəflər adlandırılan dövlətlərdə məhsulun məcburi sertifikatlaşdırılmasının keçirilməsi tərzi və qaydalarının ümumi prinsiplərini müəyyən edir.

Ümumi tələblər məhsulun sertifikatlaşdırılması nəticələrinin tanınmasına və Tərəflər arasındakı ticarətdə əlavə maneələrin aradan qaldırılmasının təmin edilməsinə yönəldilir.

### 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Məhsulun sertifikatlaşdırılması üzrə fəaliyyət Tərəflərin milli qanunvericiliklərinə və bu Ümumi tələblərə uyğun olaraq həyata keçirilir.

1.2. Məhsulun məcburi sertifikatlaşdırılması Tərəflərin milli qanunvericiliklərində nəzərdə tutulmuş hallarda həyata keçirilir.

1.3. Məcburi sertifikatlaşdırılmalı olan malların siyahısını hər bir Tərəf öz milli qanunvericiliyinə uyğun olaraq müəyyənləşdirir.

1.4. Məhsulun məcburi sertifikatlaşdırılması zamanı istifadə olunan normativ sənədlərə təhlükəsizlik və ətraf mühitin mühafizəsinə dair texniki reqlamentlər, dövlətlərarası və ya milli

standartlar, sanitar, baytar və fitosanitar norma və tələblər və Tərəflərin qanunvericiliklərinə uyğun olaraq məhsula verilən məcburi tələbləri müəyyənləşdirən digər sənədlər daxildir.

1.5. Məhsulun sertifikatlaşdırılması zamanı tətbiq olunan sınaq üsulları onların köməyi ilə yaxud ekvivalent üsulların köməyi ilə digər Tərəfin sınaqlarının müqayisə edilə bilən nəticələrini əldə etməyə imkan verməlidir.

1.6. Sertifikatlaşdırma sxemlərini Tərəflərin məhsulun sertifikatlaşdırılması sistemləri müəyyənləşdirir.

1.7. Məhsulun sertifikatlaşdırılmasını və sınaqlarını Tərəfin ərazisində müəyyən edilmiş qaydada akkreditə olunmuş sertifikatlaşdırma üzrə orqanlar və sınaq laboratoriyaları (mərkəzləri) öz akkreditə sahələri hüdudunda keçirirlər.

1.8. Sertifikatlaşdırma üzrə akkreditə edilmiş orqanların və sınaq laboratoriyalarının reyestri Tərəflərin digər dövlətlərinin istifadəsi üçün açıq olmalıdır.

1.9. Məhsulun sertifikatlaşdırılması işlərinin nəticələrinin tanınması qaydaları Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma üzrə Dövlətlərarası Şuranın 1993-cü il oktyabrın 20-də qəbul etdiyi Sertifikatlaşdırma işlərinin nəticələrinin tanınması Qaydası (4-93 nömrəli Protokol) ilə, Şuranın 1995-ci il 12 oktyabr tarixli iclasında Qaydanın 6-cı bəndinə edilmiş dəyişikliklərlə (8-95 nömrəli Protokol) və Tərəflər arasında bu sahəyə aid olan ikitərəfli sazişlərlə tənzimlənir.

## 2. MƏHSULUN SERTİFİKATLAŞDIRILMASININ KEÇİRİLMƏSİ QAYDASINA VERİLƏN ÜMUMİ TƏLƏBLƏR

2.1. Məhsulun sertifikatlaşdırılmasına aşağıdakı prosedurlar daxildir:

ərizənin verilməsi;

ərizəyə baxılması və ərizə üzrə qərar qəbul edilməsi;

məhsulun tutuşdurulması, seçilməsi və akkreditə edilmiş sınaq laboratoriyalarında nümunələrin sınağı;

istehsalın yoxlanılması, keyfiyyət sisteminin sertifikatlaşdırılması (əgər bu, sertifikatlaşdırma sxemində nəzərdə tutulmuşsa);

alınmış nəticələrin təhlili, sertifikatın və uyğunluq nişanının tətbiqi üçün icazənin (lisenziyanın) verilməsi;

sertifikatlaşdırılmış məhsula, keyfiyyət sisteminə (əgər bu, sertifikatlaşdırma sxemində nəzərdə tutulmuşsa) təftiş nəzarəti.

Hər bir sertifikatlaşdırma proseduru sənədlərlə rəsmiləşdirilməlidir.

2.2. Məhsulun sertifikatlaşdırılmasının keçirilməsi üçün ərizəçi məhsulun sertifikatlaşdırılması üzrə akkreditə edilmiş müvafiq orqana ərizə göndərir.

Ərizənin forması, ona qoşulan sənədlərin tərkibi və məzmunu Tərəflərin məhsulu sertifikatlaşdırma milli sistemi ilə müəyyənləşdirilir.

2.3. Məhsulun sertifikatlaşdırılması üzrə orqan ərizəyə baxır və ərizə üzrə qərar qəbul edir, qərarda sertifikatlaşdırmanın keçirilmə şərtləri, o cümlədən onun sxemi göstərilir.

Sertifikatlaşdırma sxemi seçilərkən konkret məhsulun istehsalının, sınaqlarının, göndərilməsinin və ondan istifadənin xüsusiyyətləri, inandırıcılığın tələb olunan səviyyəsi, ərizəçinin mümkün məsrəfləri nəzərə alınmalıdır.

2.4. Sınaqlar konstruksiyası, tərkibi və hazırlanma texnologiyası istehlakçıya (sifarişçiyə) göndərilən məhsulla eyni olan nümunələr üzərində aparılır.

Nümunələrin miqdarı, onların seçilmə tərzi, tutuşdurulma və saxlanılma qaydaları həmin məhsul üçün normativ sənədlərə və Tərəflərin sınaq metodikalarına uyğun olaraq müəyyən edilir.

Sınaqların protokolları ərizəçiyə və məhsulun sertifikatlaşdırılması üzrə orqana təqdim edilir. Sınaq protokollarının surətləri Tərəflərin sertifikatlaşdırma sistemlərində müəyyən edilmiş müddətlər ərzində, lakin sertifikatın qüvvədə olma müddətindən az olmayan müddətdə saxlanılmalıdır.

2.5. Sertifikatlaşdırma sxemindən asılı olaraq istehsal vəziyyətinin qiymətləndirilməsi yaxud keyfiyyət sisteminin sertifikatlaşdırılması aparılır.

2.6. Sertifikatlaşdırma üzrə orqan sınaq protokollarının, istehsal vəziyyətinin qiymətləndirilməsi aktlarının, keyfiyyət sistemi (istehsalat) üçün sertifikatların, əgər sertifikatlaşdırma sxemində nəzərdə tutulmuşsa, məhsulun uyğunluğu barədə digər sənədlərin təhlilindən sonra məhsulun müəyyən edilmiş tələblərə uyğunluğunun ümumi qiymətləndirilməsini həyata keçirir, sertifikat tərtib edir və onu qeydiyyatdan keçirir.

Sertifikatın verilməsi üçün əsas olan bütün sənədlər sertifikatda göstərilir.

Məcburi sertifikatlaşdırma zamanı məhsul onun üçün bütün normativ sənədlərdə müəyyən edilmiş təhlükəsizlik tələblərinə uyğun gəldikdə sertifikat verilir.

2.7. Uyğunluq sertifikatının qüvvədə olma müddətini məhsulun sertifikatlaşdırılması üzrə orqan müəyyən edir.

2.8. Sertifikat verilmiş məhsul icazə (lisenziya) əsasında, Tərəfin sertifikatlaşdırma sistemində qəbul edilmiş uyğunluq nişanı ilə markalana bilər. Uyğunluq nişanı məmulat və/və ya etiket (yarlıq), tara, ən kiçik istehlak qablaşdırması, müşayiətedici texniki sənədlərin üzərinə vurulur.

2.9. Sertifikatlaşdırılmış məhsula əlavə edilən müşayiətedici sənədlərdə keçirilmiş sertifikatlaşdırma barədə qeyd edilir və sertifikatın nömrəsi, verilmə tarixi və onu vermiş orqan göstərilir.

2.10. Bir Tərəfin sertifikatlaşdırma üzrə orqanı digər Tərəfin sertifikatlaşdırma üzrə orqanının verdiyi sertifikatın tanınması əsasında müəyyən edilmiş qaydada sertifikatlar verə bilər.

2.11. Məhsulun sertifikatlaşdırılmasına, keyfiyyət sisteminə təftiş nəzarəti (əgər bu, sertifikatlaşdırma sxemində nəzərdə tutulmuşsa), sertifikatın qüvvədə olduğu müddətdə, lakin ildə bir dəfədən az olmayaraq dövri və plandankənar yoxlamalar şəklində aparılır; bu yoxlamalara məhsul nümunəsinin sınaqları və realizə edilən məhsulun, sertifikatlaşdırma zamanı təsdiqlənmiş normalara hələ də uyğun olduğunu sübuta yetirmək üçün zəruri olan digər yoxlamalar da daxildir.

2.12. Məhsul sertifikatlaşdırma zamanı nəzarətdə olan normativ sənədlərin tələblərinə uyğun gəlmədiyi halda təftiş nəzarətinin nəticələrinə görə məhsulun sertifikatlaşdırılması üzrə orqan sertifikatın qüvvəsini dayandıra və ya ləğv edə bilər.

2.13. Məcburi sertifikatlaşdırmanın nəticələri mənfi olduqda, sertifikatlaşdırma üzrə orqan sertifikatlaşdırma üzrə səlahiyyətli milli orqanı xəbərdar etməlidir.

## 3. SERTİFİKATLAŞDIRMANIN NƏTİCƏLƏRİ HAQQINDA İNFORMASİYAYA VERİLƏN ÜMUMİ TƏLƏBLƏR

3.1. Sertifikatlaşdırmanın informasiya təminatının əsası Tərəflərin sertifikatlaşdırma sisteminin dövlət reyestrləridir.

3.2. Bir Tərəfin məhsulun sertifikatlaşdırılması üzrə milli orqanları digər Tərəfin məhsulun sertifikatlaşdırılması üzrə milli orqanlarına aşağıdakı informasiyanı təqdim edirlər:

sertifikatlaşdırma sistemində tətbiq edilən sertifikatların və uyğunluq nişanlarının formalarını;

məcburi sertifikatlaşdırılmalı olan məhsulların siyahılarını;

seriya ilə buraxılan məhsul üçün sertifikatların qüvvəsinin ləğv edilməsi, dayandırılması və bərpası haqqında məlumatları;

məhsulun sertifikatlaşdırılması üzrə akkreditə edilmiş orqanlar və sınaq laboratoriyaları (mərkəzləri) haqqında məlumatları.

3.3. Bir Tərəfin məhsulun sertifikatlaşdırılması üzrə orqanı öz milli qanunvericiliyinə uyğun olaraq digər Tərəfin sertifikatlaşdırma üzrə milli orqanının yaxud digər dövlət orqanının sorğusuna əsasən:

konkret məhsula sertifikat verilməsinin və onun qüvvədə olma müddətinin təsdiqini;

sertifikasiya sınaqlarının protokollarını, digər məlumatları, məsələn, sertifikat sahibi, məhsul istehsalçısı barədə əlavə məlumatları təqdim edir.

3.4. Tərəfin məhsulun sertifikatlaşdırılması sistemində verilmiş sertifikatların surətləri onun ərazisində müəyyən edilmiş qaydada təsdiq edilir.

3.5. Zərurət olduqda, Tərəflər sertifikatlaşdırma üzrə orqanların siyahılarını, möhür nümunələrini və sertifikatları təsdiqləmək səlahiyyəti verilmiş şəxslərin imzalarının nümunələrini bir-birlərinə göndərə bilərlər.

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan
dövlətlərə gətirilən mallara texniki, tibbi, əczaçılıq,
sanitar, baytar və fitosanitar normaların, qaydaların
və tələblərin tətbiq edilməsi haqqında
2001-ci il 28 sentyabr tarixli Sazişə
2-ci ƏLAVƏ

## Məcburi sertifikatlaşdırılmalı olan malların MDB iştirakçısı olan dövlətlərin gömrük ərazilərinə gətirilməsi qaydası haqqında

## ƏSASNAMƏ

Bu Əsasnamə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərə gətirilən mallara texniki, tibbi, əczaçılıq, sanitar, baytar və fitosanitar normaların, qaydaların və tələblərin tətbiq edilməsi haqqında Sazişin iştirakçıları olan, bundan sonra Tərəflər adlandırılacaq dövlətlərin gömrük ərazilərinə gətirilən, məcburi sertifikatlaşdırılmalı olan malların (bundan sonra — mallar) buraxılması qaydasını müəyyən edir, Tərəflərin ərazilərində qeydə alınmış təsərrüfat fəaliyyəti subyektlərinin hamısına mülkiyyət formasından, qeydiyyat yerindən, idarə və dövlət mənsubiyyətindən asılı olmayaraq, milli qanunvericilikdə və yuxarıda adları çəkilən dövlətlərin iştirakçısı olduqları beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallar istisna olmaqla, şamil edilir.

### 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Məcburi sertifikatlaşdırılmalı olan mallar sərbəst dövriyyə üçün Tərəflərin gömrük ərazilərinə buraxılarkən bu dövlətlərdə müəyyən edilmiş texniki reqlamentlərə, məcburi standartlara və tələblərə uyğun olmalıdır. Müvafiq hallarda milli sertifikatlaşdırma sistemində akkreditə olunmuş, məhsulun sertifikatlaşdırılması üzrə orqanların verdiyi uyğunluq sertifikatı və ya bu dövlətdə müəyyənləşdirilmiş qaydada təsdiq edilmiş sertifikatın surəti yaxud səlahiyyətli dövlət orqanlarının digər icazə sənədləri olmalıdır. Göstərilən sənədlər gömrük rəsmiləşdirilməsi zamanı gömrük bəyannaməsi ilə birlikdə gömrük orqanlarına təqdim edilir.

1.2. Tərəflərin gömrük ərazilərinə gətirilən və məcburi sertifikatlaşdırılmalı olan malların Siyahıları Tərəflərin milli qanunvericiliklərinə uyğun olaraq müəyyən edilir.

Göstərilən malların Siyahıları dövlətin xarici iqtisadi fəaliyyətinin Mal nomenklaturasının tələblərinə uyğun olaraq hazırlanır.

1.3. Tərəflərin gömrük ərazilərində müəyyən edilmiş tələblərə malların uyğunluğunu təsdiq edən sənədlər, əgər milli qanunvericilikdə başqa hal nəzərdə tutulmamışsa, idxalçı dövlətin məhsulun sertifikatlaşdırılması sisteminin qaydalarına əsasən verilmiş uyğunluq sertifikatlarıdır.

1.4. Məcburi sertifikatlaşdırılmalı olan malların Tərəflərin gömrük ərazilərinə gətirilməsinə dair kontraktların (müqavilələrin) şərtlərində sertifikatın və zərurət olduqda, uyğunluq nişanının olması nəzərdə tutulur. Bunlar Tərəflərin sertifikatlaşdırma üzrə səlahiyyətli orqanları tərəfindən verilir və ya tanınır.

## 2. GÖMRÜK REJİMLƏRİNİN ŞƏRTLƏRİNƏ UYĞUN OLARAQ MALLARIN BURAXILIŞININ XÜSUSİYYƏTLƏRİ

2.1. Milli qanunvericiliklərə uyğun olaraq məcburi sertifikatlaşdırmanın keçirilməsinin sənədlərlə təsdiqini tələb edən müəyyən gömrük rejimlərinə aid edilərkən məcburi sertifikatlaşdırılmalı olan mallar Tərəflərin gömrük ərazilərinə səlahiyyətli orqanların sertifikatlarının yaxud digər icazə sənədlərinin təqdim edilməsi şərti ilə buraxılmalıdır.

2.2. Tərəflərin milli qanunvericiliklərində nəzərdə tutulmuş digər hallarda məcburi sertifikatlaşdırılmalı olan malların hansı gömrük rejiminə aid edilməsindən asılı olmayaraq, onlar uyğunluq sertifikatları təqdim edilməsi şərti qoyulmadan buraxılmasına yol verilir.

## 3. GƏTİRİLƏN MALLARIN GÖMRÜK RƏSMİLƏŞDİRİLMƏSİ

3.1. Gətirilən malların gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti Tərəflərin milli qanunvericiliklərinə uyğun olaraq bunun üçün müəyyən edilmiş yerlərdə aparılır.

3.2. Onların gömrük sərhədlərindən keçirilən malların gömrük rəsmiləşdirilməsi Tərəflərin milli qanunvericilikləri ilə müəyyən edilmiş dövlət nəzarəti növlərinin həyata keçirilməsindən sonra başa çatdırıla bilər.

3.3. Gömrük bəyannaməsi ilə, gömrük rəsmiləşdirilməsi və gömrük nəzarətinin aparılması üçün zəruri olan digər sənədlərlə birlikdə deklarant müəyyən edilmiş formada uyğunluq sertifikatını (tanıma barədə şəhadətnamə) və/və ya müəyyən edilmiş qaydalara uyğun olaraq malların gətirilməsi hüququ üçün səlahiyyətli orqanın icazəsini gömrük orqanına təqdim etməyə borcludur.

Gömrük bəyannaməsində açıqlanan məlumatların səhihliyini təsdiq etmək üçün gömrük orqanı gömrük nəzarətinin həyata keçirilməsi üçün zəruri olan əlavə sənədlərin və məlumatların təqdim olunmasını tələb etmək hüququna malikdir.

3.4. Sertifikatlaşdırma məqsədləri üçün gömrük orqanının icazəsi ilə deklarantlar yaxud mallara münasibətdə səlahiyyətlərə malik olan digər şəxslər gətirilən malları gözdən keçirə və onlardan nümunələr götürə bilərlər.

Nümunələr gömrük orqanının səlahiyyətli şəxsinin iştirakı ilə, həmin nümunələrin tədqiqi imkanını təmin edən minimum miqdarda götürülür.

Nümunələrin götürülməsi barədə Tərəfin milli qanunvericiliyində müəyyən edilmiş formada akt tərtib edilir, aktı gömrük orqanının səlahiyyətli vəzifəli şəxsi, həmçinin nümunələrin seçilməsini həyata keçirən şəxslər imzalayırlar.

Nümunələr üçün ayrıca bəyannamə bir şərtlə verilmir ki, onlar mallar barədə verilən gömrük deklarasiyasında öz əksini tapmış olsun.

Sınaqdan keçirilən nümunələrin qaytarılması yaxud sınaqlar nəticəsində onların itirilməsi (məhv edilməsi) şərtləri deklarantla yaxud mallar üzərində səlahiyyəti olan digər şəxslə

ərazisinə həmin malın gətirildiyi Tərəfin sertifikatlaşdırma üzrə orqanı arasında bağlanmış sertifikatlaşdırma keçirilməsi barədə müqavilədə nəzərdə tutulmalıdır.

3.5. Sertifikatlaşdırma məqsədi ilə sınaqların keçirilməsi üçün nümunə kimi Tərəfin ərazisinə gətirilən malların gömrük rəsmiləşdirilməsi, əgər Tərəflərin milli qanunvericiliklərində başqa hal nəzərdə tutulmamışsa, uyğunluq sertifikatı olmadan, sertifikatlaşdırma üçün zəruri olan malların miqdarı da göstərilməklə, sertifikatlaşdırma üzrə işlər aparılması barədə müqavilənin olması haqqında sertifikatlaşdırma üzrə səlahiyyətli orqanının məktubunun təqdim edilməsi ilə həyata keçirilir.

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan
dövlətlərə gətirilən mallara texniki, tibbi, əczaçılıq,
sanitar, baytar və fitosanitar normaların, qaydaların
və tələblərin tətbiq edilməsi haqqında
2001-ci il 28 sentyabr tarixli Sazişə
3-cü ƏLAVƏ

## MDB iştirakçısı olan dövlətlərin sərhədlərindən keçirilən mallara sanitar, baytar və fitosanitar nəzarətin təşkilinə verilən ümumi tələblər haqqında

## ƏSASNAMƏ

Bu Əsasnamə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərə gətirilən mallara texniki, tibbi, əczaçılıq, sanitar, baytar və fitosanitar normaların, qaydaların və tələblərin tətbiq edilməsi haqqında Sazişin iştirakçıları olan, bundan sonra Tərəflər adlandırılan dövlətlərin sərhədlərindən keçirilən mallara sanitar, baytar və fitosanitar nəzarətinin təşkilinin ümumi prinsiplərini və bu dövlətlərin gömrük ərazilərinə malların gətirilməsinin rəsmiləşdirilməsi qaydasını müəyyən edir.

### 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Saziş iştirakçılarının sərhədlərindən keçirilən (bundan sonra — nəzarətdə olan mallar) mallara (onların təxmini siyahısı bu Əsasnamənin əlavəsində göstərilmişdir) sanitar, baytar və fitosanitar nəzarəti (bundan sonra — nəzarət) sərhədlərdən keçirilən malların gətirilmə qaydalarındakı pozuntuların ticarətə mənfi təsirini minimuma endirmək, eləcə də Tərəflərin ərazilərində insanların həyatı, sağlamlığı, sanitar, baytar və fitosanitar vəziyyət üçün zərərli nəticələrinin qarşısını almaq məqsədi ilə aşkara çıxarılmasına, qabaqlanmasına və onların aradan qaldırılmasına yönəldilmiş tədbir və qaydaların məcmusundan ibarətdir.

1.2. Sanitar, baytar və fitosanitar nəzarəti daxili istehlak üçün istehsal edilərək gətirilən mallara və məhsullara şamil olunur.

Sanitar, baytar və fitosanitar nəzarətindən keçirilməli olan malların siyahısını hər bir dövlət öz milli qanunvericiliyinə uyğun olaraq müəyyən edir.

### 2. NƏZARƏTİN TƏŞKİLİ VƏ NƏZARƏTDƏ OLAN MALLARA VERİLƏN TƏLƏBLƏR

2.1. Nəzarətin həyata keçirilməsi üçün Tərəflər müvafiq nazirlik və idarələri (bundan sonra — səlahiyyətli orqanlar) təyin edirlər, sanitar, baytar və fitosanitar nəzarətin tələblərinə uyğun gəlməyən malların göndərilməsinə yol verilməməsi sahəsində fəaliyyətin əlaqələndirilməsi həmin nazirlik və idarələr vasitəsi ilə təmin edilir.

2.2. Fəaliyyəti razılaşdırmaq məqsədi ilə Tərəflərin səlahiyyətli orqanları məhsulun keyfiyyətinə qoyulan tələblərin yaxınlaşdırılması və standartların və digər normativ sənədlərin

unifikasiyası məsələlərində əməkdaşlıq edir, gigiyena, baytar, fitosanitar şəhadətnamələrinin (rəylərin, sertifikatların) və digər sənədlərin nümunələrini bir-birlərinə göndərirlər.

2.3. Nəzarətin həyata keçirilməsi zamanı istifadə edilən normativ sənədlərə milli dövlət standartları, sanitar, baytar və fitosanitar normalar, qaydalar və Tərəflərin milli qanunvericiliklərinə, bunlar olmadığı hallarda isə beynəlxalq normalara uyğun olan digər normativ sənədlər (Codex Alimentarius Komissiyasının, Beynəlxalq epizootiya bürosunun və Bitkilərin mühafizəsi üzrə Beynəlxalq Konvensiyanın müəyyən etdiyi standartlar, direktivlər və tövsiyələr) daxildir.

2.4. Tərəflərin gömrük ərazilərinə gətirilən nəzarətdə olan mallar dövlətlərdə qüvvədə olan normativ hüquqi aktların tələblərinə, belələri olmadığı hallarda isə beynəlxalq tələblərə uyğun olmalıdır.

2.5. Tərəflərin gömrük ərazilərinə nəzarətdə olan malların gətirilməsi və onların realizəsinin məcburi şərti səlahiyyətli orqanların müəyyən edilmiş formada verdikləri sənədlərin mövcudluğudur.

Belə sənədləri olmayan nəzarətdə olan malların gətirilməsinə, onlardan istifadəyə və onların realizəsinə yol verilmir.

2.6. Gömrük nəzarəti keçirilərkən malların gətirilməsinin məcburi şərti sanitar, baytar və fitosanitar nəzarətin həyata keçirilməsinin təsdiqinin olmasıdır.

Gömrük rəsmiləşdirilməsi üçün gömrük bəyannaməsi ilə yanaşı, idxalçı dövlətin dövlət orqanları: baytarlıq xidməti, bitkilərin karantini və mühafizəsi xidməti və sanitar-epidemioloji xidməti tərəfindən verilən icazə sənədləri təqdim edilir.

Məcburi sertifikatlaşdırılmalı olan məhsul üçün, əgər Tərəflərin milli qanunvericiliyində başqa hal nəzərdə tutulmayıbsa, uyğunluq sertifikatı təqdim edilir.

2.7. Nəzarətdə olan mallar Tərəflərin gömrük ərazisinə gətirilərkən bu mallara münasibətdə səlahiyyətləri olan şəxslər göstərilən sənədləri müvafiq dövlət nəzarəti orqanlarına təqdim edirlər.

## 3. NƏZARƏTDƏ OLAN MALLARIN GƏTİRİLMƏSİNİN RƏSMİLƏŞDİRİLMƏSİ QAYDASI

3.1. Buraxılış məntəqələrində idxalçı dövlətin dövlət nəzarəti orqanları idxalçı dövlətin milli qanunvericiliyinə uyğun olaraq, gətirilən mallara bütün nəzarət növlərini həyata keçirirlər. Dövlət nəzarəti orqanlarının əməkdaşları nəzarətdə olan malların müşayiətedici sənədlərini öz səlahiyyətləri hüdudlarında yoxlayırlar. Zərurət olduqda, baxış keçirilir və laboratoriya ekspertizaları üçün gömrük orqanları ilə razılaşdırılmış qaydada nümunələr götürülür. Nəzarətdə olan mallar üzərində səlahiyyətlərə malik olan şəxslər dövlət nəzarəti orqanının öz səlahiyyətləri çərçivəsində bu mallara dair irəli sürə biləcəyi əlavə tələblərə tabe olmağa borcludurlar.

Nəzarətdə olan malların gətirilməsinin mümkünlüyü barədə gömrük orqanlarının xəbərdar edilməsi qaydası Tərəflərin milli qanunvericiliyinə uyğun olaraq müəyyən edilir.

3.2. Dövlət nəzarəti orqanlarının tərtib etdiyi sənədlər malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin keçirilməsi üçün müvafiq gömrük orqanına təqdim edilir.

Gömrük orqanları dövlət nəzarəti orqanlarının nəzarət proseduru qurtardıqdan sonra nəzarətdə olan malların gömrük rəsmiləşdirilməsini başa çatdırırlar.

3.3. Nəzarətdə olan malların dövlətin gömrük ərazisinə gətirilməsinə yol verilməməsi barədə qərar qəbul edildiyi halda dövlət nəzarəti orqanının vəzifəli şəxsi malların gətirilməsinə yol verilməməsi barədə bildiriş tərtib edir, həmin bildiriş nəzarətdə olan mallar üzərində səlahiyyətə malik olan şəxsin nəzərinə çatdırılır. Eyni zamanda, qəbul edilmiş qərar barədə buraxılış məntəqəsində yerləşən gömrük orqanına məlumat verilir.

3.4. Dövlət nəzarəti orqanlarının gətirilməsinə yol vermədikləri nəzarətdə olan mallar, milli qanunvericilik nəzərə alınmaqla, idxalçı dövlətin ərazisi hüdudlarından dərhal çıxarılmalıdır. Çıxarılmanı nəzarətdə olan mallar üzərində səlahiyyətə malik olan şəxs gömrük qaydalarına riayət etməklə öz hesabına həyata keçirir. İxracatçı dövlət belə malların onun gömrük ərazisinə qaytarılmasına mane olmur.

3.5. Nəzarətdə olan mallara baytar nəzarəti Baytarlıq sahəsində əməkdaşlıq haqqında 1993-cü il 12 mart tarixli Sazişə, həmçinin MDB iştirakçısı olan dövlətlərin Baytarlıq sahəsində əməkdaşlıq üzrə Hökumətlərarası Şurasının 1998-ci il oktyabrın 22-də təsdiq etdiyi Dövlət Baytarlıq Nəzarəti Komitəsinin nəzarətində olan yüklərə baytarlıq müşayiət sənədlərinin verilmə qaydası haqqında Təlimata və Ətin baytar damğalanması üzrə Təlimata uyğun olaraq həyata keçirilir.

3.6. Nəzarətdə olan mallara fitosanitar nəzarəti Bitkilərin karantini sahəsində əməkdaşlıq haqqında 1992-ci il 13 noyabr tarixli Sazişə uyğun olaraq həyata keçirilir.

3.7. Nəzarətdə olan mallara sanitar nəzarəti Tərəflərin milli qanunvericiliyinə, MDB dövlətləri arasında bağlanmış çoxtərəfli və ikitərəfli müqavilə və sazişlərə, eləcə də müəyyən edilmiş beynəlxalq normalara uyğun olaraq həyata keçirilir.

## MDB iştirakçısı olan dövlətlərə gətirilən mallara texniki, tibbi, əczaçılıq, sanitar, baytar və fitosanitar normaların, qaydaların və tələblərin tətbiq edilməsi haqqında Sazişə dair Azərbaycan Respublikasının

## XÜSUSİ RƏYİ

MDB iştirakçısı olan dövlətlərin Ümumi aqrar bazarı haqqında 1998-ci il 6 mart tarixli Sazişin və Baytarlıq sahəsində əməkdaşlıq haqqında 1993-cü il 12 mart tarixli Sazişin müddəaları Azərbaycan Respublikası üçün həmin sənədlərə o qoşulduqdan sonra qüvvəyə minəcəkdir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**